# Elmin inkişafına dəyərli töhfələr verən alim



Haqqında söhbət açacağımız alim - Azərbaycan Kooperasiya Universitetinin Standartlaşdırma və texnologiya kafedrasının müdiri, professor Elmidar Ələkbərov 1940-cı il oktyabrın 17-də Masallı rayonunun Qızılağac kəndində anadan olmuşdur. Təhsildə əksər yaşıdlarından öz istedadı, iti fəhmilə fərqlənmiş və orta məktəbi əla qiymətlərlə başa vurmuşdur.

Elmidar Ələkbərov 1958-ci ildə indiki Azərbaycan Dövlət Aqrar Akademiyasına daxil olmuş, tələbəlik illərindən ictimai həyata göstərdiyi böyük marağı və bu sahədəki intensiv fəaliyyəti ilə fərqlənmişdir.

1963-cü ildə Elmidar Ələkbərov təyinatla Masallı rayonuna göndərilmiş, burada 1965-ci ilədək Azərbaycan SSR Kənd Təsərrüfatı Məhsulları İstehsalı və Tədarükü Nazirliyinin Masallı kolxoz-sovxoz istehsalat idarəsində təşkilatçı müfəttiş və sovxozda baş mütəxəssis vəzifələrində çalışmışdır.

Təsərrüfatda işlədiyi dövrdə təhsilini artırmaq arzusunda olmuşdur. O vaxtkı qaydalara əsasən institutu bitirmiş mütəxəssislər təhsilin növbəti pilləsinə ikiillik praktiki iş stajından sonra buraxılırdılar. Buna baxmayaraq, İnstitutun Elmi Şurası mütəxəssisin təhsildəki müvəffəqiyyətlərini nəzərə alıb, onun vaxtından əvvəl müsabiqədə iştirakına zəmanət vermişdir. Aspiranturaya qəbul olunduqdan sonra tədqiqatını Leninqrad Baytarlıq İnstitutunda limit müddətində başa çatdırmışdır.

1968-ci ildə Elmidar Ələkbərov Rusiya Federasiyasının əməkdar elm xadimi, professor Qans Vokkenin elmi rəhbərliyi altında namizədlik dissertasiyasını uğurla müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Aspiranturanı bitirdikdən sonra gənc alim 1968-ci ilin sentyabr ayında Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyində işə qəbul edilmişdir.

Tutduğu vəzifə ilə yanaşı, siyasi biliyini artırmaq məqsədilə o, 1969-cu ildə Azərbaycan KP MK nəzdində fəaliyyət göstərən Marksizm-Leninizm Universitetinin partiya-təsərrüfat aktivinin təsərrüfat rəhbərləri fakültəsinə daxil olmuş və oranı müvəffəqiyyətlə bitirmişdir. Bu, ona 1970-ci ildə yeni təşkil olunmuş Azərbaycan SSR Tədarük Nazirliyində kadrların seçilməsi və yerləşdirilməsi məsələsinə baxılarkən yüksək ixtisaslı mütəxəssis kimi burada işləməsinə zəmin yaradır. 1970-ci ildən başlayaraq 1981-ci ilədək o, burada dövlət müfəttişi, şöbə müdiri, idarə rəisi, daha sonra isə Baş idarə rəisi vəzifələrində işləyir. İşlədiyi sahədə ixtisasını artırmaq məqsədilə 1972-ci ildə Moskva şəhərində yerləşən Ümumittifaq qiyabi Yeyinti Sənaye İnstitutunun kənd təsərrüfatı məhsulları tədarükünün iqtisadiyyatı və təşkili fakültəsinə daxil olur. Bu, onun işlədiyi sahədə biliyinin genişlənməsinə təkan verir.

Elmidar Ələkbərov Tədarük Nazirliyində işlədiyi dövrdə onun rəhbərliyi ilə Kürdəmirdə, Bakıda, Naxçıvanda müasir avadanlıqlarla təchiz edilmiş irihəcmli yeni zavodlar inşa edilmiş, Giləzidə Macarıstan avadanlıqları əsasında avtomatik sistemlə idarə olunan zavod və Bakıda karbomid konsentralı dənəvərləşdirilmiş sənaye yem istehsal edən sex tikilmişdir. Köhnə müəssisələrin bir çoxunda istehsal proseslərinin texnologiyası təkmilləşdirilmiş, yükvurma və yükboşaltma işləri tamamilə mexanikiləşdirilmişdir. Bunun sayəsində sənaye məhsullarının həcmi iki dəfə artaraq bir milyon tona çatmışdır. Məhsul istehsalı ilə yanaşı, çeşidlərin sayı bir yarım dəfə artırılaraq on altıya çatdırılmışdır. İstehsal olunan bütün yemlərin qidalılığının zənginləşdirilməsi təklifi keçmiş İttifaq Nazirliyində qəbul edilərək həyata keçirilmişdir. Yerli xammal mənbələrindən - neft mənşəli zülaldan, əhəngvarı və digər maddələrdən, karbomid konsentratından, üzüm və şəkər tullantılarından istifadə olunması heyvandarlığa daha çox yüksək keyfiyyətli sənaye yemi ixrac etməyə imkan vermişdir. Onun təşkilatçılığı və peşəkarlığı sayəsində çeşidli yemlərin keyfiyyətinin yaxşılaşdırılması üçün texnoloji proseslər sxemində edilən dəyişikliklər respublikada heyvandarlıq məhsulları istehsalının və tədarükünün artımına öz müsbət təsirini göstərmişdir.

Elmidar müəllim vitaminli və zülallı yeni yem bitkisi - yaşıl su yosununun (xlorellanın), karbomid konsentratının respublikada tədbiqi üçün bir çox səmərəli təkliflərin müəllifidir. Bu məqsədlə Azərbaycan KP Mərkəzi Komitəsinin tövsiyəsilə nümayəndə heyətinin tərkibində Özbəkistan, Gürcüstan, Ukrayna və Tatarıstanda işgüzar səfərlərdə olmuşdur.

Təşkilatçılığı, peşəkarlığı, mənəvi və əxlaqi saflığı ilə fərqlənən alim on ilə yaxın SSRİ Tədarük Nazirliyinin Ümumittifaq Elmi-Tədqiqat yem sənayesi İnstitutunun Koordinasiya şurasının daimi üzvü olmuşdur.

1981-ci ildən ali dövlət hakimiyyət orqanlarında fəaliyyətə başlayan Elmidar Ələkbərov 1983-cü ilin mart ayınadək Azərbaycan SSR Nazirlər Sovetinin İşlər İdarəsinin aqrar-sənaye kompleksi şöbəsində, 1988-ci ilin noyabr ayınadək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Kənd təsərrüfatı və yeyinti sənayesi şöbəsində məsul vəzifələrdə çalışır. Bu dövrlərdə siyasi biliyini artırmaq üçün böyük səy göstərir. 1990-cı ildə o, Azərbaycan KP MK nəzdində fəaliyyət göstərən indiki Prezident yanında Dövlət İdarəçilik Akademiyasına daxil olur, oranı fərqlənmə diplomu ilə bitirərək politoloq ixtisası alır.

Elmidar Ələkbərov 1988-ci ilin noyabrında Azərbaycan KP Astara rayon komitəsinin katibi seçilir, Aqrar-siyasət komissiyasına rəhbərlik edir. Onun burada işlədiyi dövrdə rayonun iqtisadiyyatı əhəmiyyətli dərəcədə yüksəlmiş, əhalinin rifahı xeyli yaxşılaşmışdır.

2002-ci ilin may ayında Elmidar Ələkbərov Azərbaycan Kooperasiya Universitetinin Standartlaşdırma və texnologiya kafedrasına dosent vəzifəsinə təyin edilir.

Zəngin elmi yaradıcılıq yolu keçmiş istedadlı alim əlli illik fəaliyyəti ərzində altmışdan çox elmi və elmi-publisistik məqalə yazmış, müxtəlif elmi yığıncaqlarda dərin məzmunlu məruzələr etmiş, elmi dairələrdə layiq olduğu nüfuzu qazanmışdır.

Bugünədək o, əvvəl Azərbaycan Kooperasiya Universitetinin Standartlaşdırma və texnologiya, sonralar Əmtəəşünaslıq və ekspertiza kafedralarında işləməklə yanaşı, Azərbaycan Dövlət İqtisad Universitetinin Standartlaşdırma və sertifikatlaşdırma kafedrasında çalışır.

Elmidar Ələkbərov işə təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, daxili enerjisini və potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin təkmilləşməsinə istiqamətləndirmişdir. Əsərləri Rusiyada və Azərbaycanda dərc edilmişdir. Alimin "Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma", "Kvalimetriya və keyfiyyətin idarə edilməsi", "Patentşünaslıq" dərslikləri və dərs vəsaitləri "Sertifikatlaşdırmanın əsasları", "Məhsulların sertifikatlaşdırılması" və s. kimi tədris proqramaları respublikanın ali məktəblərində təhsil alan tələbələr tərəfindən geniş istifadə edilir.

Professor Elmidar Ələkbərovun respublikada heyvandarlıq məhsulları istehsalı və tədarükünün artırılması sahəsində apardığı tədqiqat işləri diqqətəlayiqdir.

1975-ci ildə rasionda vitamin A çatışmamazlığı şəraitində mikrobioloji sintez preparatı - vitamisinin tətbiqi inkişafda olan heyvanların hər birindən ildə əlavə olaraq altmış iki kiloqram çəki artımı əldə etməyə, vahid çəkiyə yem sərfini on üç faiz azaltmağa imkan vermişdir.

1978-ci ildə erkən yaşda heyvanların rasionlarında mikrobioloji sintez preparatı - kormorindən istifadə edilməsi tədqiqatları ilə sübut etmişdir ki, daha səmərəli yetmiş günlük kökəltmə dövründə hər yüz başdan qənaət səkkiz min kiloqram yem vahidi təşkil edir. Kökəltmədə olan heyvanların çəki artımı orta hesabla iyirmi altı faiz yüksəlir.

Aktual problemlərdən olan məhsulların keyfiyyət strategiyası çərçivəsində, kreativ ideyalardan effektiv idarəetməyə doğru apardığı elmi-pedaqoji fəaliyyəti genişlənməkdədir.

Ölkədə standartlaşdırma və sertifikatlaşdırma qaydalarının Beynəlxalq qaydalara uyğunlaşdırılması istiqamətində apardığı nəzəri işi Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması və ölkənin bu təşkilatın çərçivəsində fəaliyyəti üçün önəmli töhfədir. Eyni zamanda o, tələbələrdə bilik və bacarığın formalaşdırılmasına kömək edir.

Bununla yanaşı, alim yeni sərinləşdirirci nar içki çeşidlərinin texnologiyası və standartlaşdırılması üzərində çalışır.

Elmidar Ələkbərov bir alim kimi Kooperasiya Universitetinin tədris-metodiki, elmi-tədqiqat işlərinin üzərində yorulmadan çalışır. Tədris prosesinin daha da təkmilləşdirilməsi, tədrisin keyfiyyətinin yaxşılaşdırılması üçün əməyini yorulmadan sərf edir.

Yeni dərsliklər üzərində çalışır. Bu sahədəki fəaliyyətini bu gün də uğurla davam etdirən Elmidar Ələkbərov üzərində intensiv işlədiyi "Azərbaycanda kooperasiyanın nəzəriyyəsi və praktikası" adlı dərs vəsaitini bitirmək üzrədir.

Elmidar müəllimin vətəndaşlıq mövqeyinin əsas meyarı milli dövlətçiliyimizə sədaqət, vətənə və xalqa qırılmaz tellərə bağlılıq, ulu öndərimiz Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının sivil normaları əsasında idarə edilməsi üçün işləyib hazırladığı demokratik prinsiplərə sədaqətidir.

Elmidar müəllimin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1981-ci ildə o, SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə "Şərəf Nişanı" ordeninə, 1982-ci ildə Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalına layiq görülür. 2010-cu ildə Azərbaycan Mərkəzi Koopertivlər İttifaqının ən böyük mükafatı - Azərbaycan Kooperasiyasının əlaçısı fəxri adı universitetdə ilk dəfə olaraq məhz ona təqdim edilmişdir.

Azərbaycan elminin intensiv inkşafı yolunda dəyərli işlər görən professor Elmidar Ələkbərovun həyat yolu gənclərimiz üçün nümunə ola bilər.

**Nəriman MƏMMƏDOV,**
**texnika elmləri doktoru, professor.**